# Yeni kitabın təqdimatı



**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı və informasiya dəstəyi, Norveçin Oslo şəhərindəki Nizami Gəncəvi adına Azərbaycan dili həftəsonu məktəbinin təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində tanınmış uşaq yazıçısı, şair Gülzar İbrahimovanın "Trolların sirri" adlı kitabının təqdimatı keçirildi. Kitab Skandinaviya xalqlarının nağıl qəhrəmanları olan trollara həsr edilib.**

N.Gəncəvi adına həftəsonu Azərbaycan dili məktəbinin koordinatoru Günay Əliyeva tədbiri giriş sözü ilə açaraq, kitabın müəllifi Gülzar İbrahimova ilə həftəsonu məktəbi arasında sıx əməkdaşlıq yarandığını deyib. O, qeyd edib ki, məktəbin şagirdləri "Trolların sirri" nağılının Norveç dilinə tərcüməsinə başlayıblar.



Tədbirdə çıxış edən yazıçı, şair Gülzar İbrahimova Norveçdə dünyaya göz açmış uşaqlarımızın dilimizlə yanaşı, ədəbiyyatımızı da öyrənməsinin təqdirəlayiq olduğunu bildirib.

Uşaq yazıçısı, "Ağıllı bala" nəşriyyatının rəhbəri Fatimə Alxas, tarix elmləri doktoru, professor, AYB-in üzvü, "Məcməüşşüəra" ədəbi məclisinin sədri Şahin Fazil, şairlərdən Gülayə Şınıxlı, Fəxrəddin Meydanlı, Zaur Ustac və başqaları G.İbrahimovaya yaradıcılıq uğurları arzulayıblar.

Tədbirin sonunda Osloda N.Gənvəvi adına həftəsonu Azərbaycan dili məktəbinin şagirdləri sözləri Gülzar İbrahimovaya, musiqisi Elşən Nicata məxsus olan "Ana dilim" və "Sağ ol, ey Vətən!" mahnılarını ifa ediblər.

"Trolların sirri" nağılının ilk təqdimatı 2024-cü il mayın 25-də Diasporla İş üzrə Dövlət Komitəsinin və N.Gəncəvi adına həftəsonu məktəbinin birgə təşkilatçılığı ilə Oslonun məşhur "Deichman Bjşrvika" kitabxanasında keçirilib.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2024.- 6 iyul, (№ 139).- S.11.